**UOT 82-31**

# FANTASTİK ƏDƏBİ XRONOTOPLARIN KİNOMATOQRAFİK HƏLLİ YOLLARI

**Aydan NAĞIYEVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 3 iyul 2025; çapa qəbul edilmişdir: 14 sentyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.

Received: 3th of July, 2025; accepted: 14th of September, 2025; published online: 17th of December, 2025.

**Açar sözlər:** *fantastik əsərlər, fantastik filmlər, xronotop, Stiven Kinq, Herbert Uells, Pyer Bull*

## Giriş

Fantastik və ya fantastik ünsürlər daşıyan filmlərə diqqət etsək, onların zaman və məkan anlayışları ilə daim "oyun oynadıqlarını", gerçəkliyin sərhədlərini aşan təsvirlər yaratmaqla tamaşaçıları fərqli dünyalara apardıqlarını görərik. Bu araşdırma fantastik kinoda xronotopun, yəni zaman və məkan əlaqələrinin bədii-estetik cəhətdən necə işlən-diyini, xüsusilə dünya ədəbiyyatının müxtəlif fantastik ünsürlü əsərləri ilə tanınan yazı-çılarından olan Stiven Kinq, Herbert Uells və Pyer Bullun əsərləri əsasında çəkilmiş filmlərin timsalında təhlil edir. Tədqiqat müxtəlif fantastik mətnlərin ekran adaptasiya-larında zaman-məkan manipulyasiyalarını, xronotopun janr formalaşdırıcı rolunu və müəllif yanaşmalarının ekran təcəssümü ilə olan fərqlərini araşdırır.

## 1. Fantastik filmdə xronotopun təhlil metodologiyası

Rus ədəbiyyatşünası Mixail Baxtin tərəfindən təqdim edilmiş xronotop nəzəriyyəsi, zaman və məkanın bədii əsərlərdə ayrılmaz şəkildə bir-biri ilə əlaqəli olduğunu vurğulayan nəzəri konseptdir [1, s. 315-316]. Uzun illər xronotop əsasən realist məzmunlu əsərlər üzərində nəzəri bir mövzu kimi araşdırılsa da, müasir dövrdə fantastik motivlərin sənətin hər bir sahəsində daha çox qarşımıza çıxması nəticəsində artıq reallıqdan kənar olan sənət əsərləri üzərində təhlillər aparılan bir mövzu halına gəlmişdir. Fantastik filmlərin müəllifləri də xronotop anlayışını daha irəli apararaq, reallıqdan kənara çıxan zaman və məkan arasındakı əlaqəni yaratmaq üçün xüsusi vizual və ekran üçün tətbiq edilən narrativ üsullardan istifadə edir. Fantastik filmdə xronotopu araşdırarkən biz Tzvetan Todorovun təklif etdiyi struktur təhlili çərçivəsinə diqqət etməliyik: *"..."Möcüzəli" naməlum, heç vaxt görülməmiş, gələcək hadisəyə uyğundur; "qəribə" povestdə izaholunmaz, bilinən hadisələrlə, onlardan əvvəlki təcrübə ilə və beləliklə də keçmişə istinadla əlaqələndirilir. Fantastikaya gəlincə, onun əsas xüsusiyyəti qeyri-sabitliyi açıq şəkildə mövcuddur..."* [3, s. 30-63]. Todorova görə, fantastik əsərlərdə hadisələr üç əsas kateqoriyaya bölünür: möcüzəli, qəribə və fantastik. Bu təsnifat xronotopun filmdə özünü necə göstərdiyini analiz etmək üçün metodoloji baxımdan önəmli bir rol oynayır, çünki hər bir kateqoriya özünəməxsus xronotop strukturuna sahibdir və bu da filmin ümumi fantastik janr daxilindəki yerini müəyyənləşdirir.

Fantastik filmlərdə xronotop təkcə hekayə daxilində zaman və məkanın təşkili de-

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* nagiyeva.99@inbox.ru
https://doi.org/10.30546/25194011.2025.14.5.3067

yil, həm də kamera hərəkətləri, montaj, səs dizaynı və vizual effektlər kimi kino sahəsinə aid vasitələrlə də formalaşır. Tədqiqatçı Bahar Altay Erişen belə qeyd edir: *"Deleuz İkinci Dünya Müharibəsindən əvvəlki dövrə və hərəkət obrazı ilə klassik povestə işarə edir... Deleuz iki kadr arasında dəyişən hərəkətin bütövlüklə əlaqələndirilməsi lazım olduğunu vurğulasa da, buna montajla, eləcə də çəkiliş, kadr, kəsmə və kamera hərəkəti yolu ilə nail oluna biləcəyini müdafiə edir... Hərəkət-obraz konsepti təkcə klassik kinonu müəyyən edən fundamental xüsusiyyətləri daşıdığı üçün deyil, həm də kino və fəlsəfənin yan-yana getməsinə səbəb olan ilk obraz olduğu üçün vacibdir"*. Məsələn, yavaşladılmış çəkilişlər zamanı uzatmaq, kəskin keçidlər paralel zaman axınlarını göstərmək, işıq və kölgə dəyişiklikləri isə bəzən zamanın, bəzən də məkanın transformasiyasını təsvir etmək üçün istifadə oluna bilər. Xronotopun lazımi səviyyədə əks etdirilməsi filmdə kamera işçisinin, vizual effektlərlə məşğul olan şəxsin, bəstəkarın və rejissorun ciddi ortaq işinin məhsulu olaraq qarşımıza çıxır [2, s. 1-3].

## 2. Stiven Kinq kinoadaptasiyalarında xronotopun funksiyası: qorxu janrının zaman və məkan kodları

Stiven Kinq qorxu janrının ustadı olan Amerikalı yazıçıdır. Kinqin üslubu oxucunu dərin psixoloji proseslərə və gündəlik həyatın içində gizlənmiş qorxulara aparır. Onun "Parıldayan", "O", "Ölü zona" kimi əsərləri təkcə bədii ədəbiyyatda deyil, eyni zamanda kino və televiziya sahəsində də böyük iz buraxmışdır. Yazıçının fərqli qəhrəmanları, mürəkkəb süjetləri və real həyatla fantastikanın kəsişdiyi xronotopları onu çağdaş dünya ədəbiyyatında bənzərsiz edən əsas cəhətlərdəndir. Onun əsərləri əsasında çəkilmiş filmlərdə xronotop, qorxu elementlərini və psixoloji gərginliyi artırmaq üçün xüsusi bir rola malikdir. "Ölü zona" əsəri əsasında çəkilmiş eyni adlı filmdə gələcəyi görmə qabiliyyəti və xronotopun zamanda bir növ əyilməsi öz əksini tapır. "Ölü zona" (The Dead Zone/1983) filmi Stiven Kinqin eyni adlı romanı əsasında Devid Kronenberq tərəfindən ekranlaşdırılmışdır. Film yol qəzasından sonra 5 illik komadan ayılan və insanlara toxunmaqla onların keçmiş və gələcəyini görmə qabiliyyəti qazanan Coni Smit haqqındadır. Bu filmdə xronotop əsas qəhrəmanın zamanı aşan görmə qabiliyyəti vasitəsilə formalaşır; yəni Smit bir məkanda olsa da, şüuru başqa zaman müstəvilərində səyahət edir. Ekran işində xronotopun ən maraqlı istifadə formalarından biri Smitin siyasətçi Qreq Stilsonun əlini sıxdığı səhnədədir. Bu səhnədə Coni Smit siyasətçi Qreq Stilsonun əlini sıxan anda gözlənilməz və sarsıdıcı bir gələcək görüntüsü ilə qarşılaşır: Stilson prezident seçildikdən sonra nüvə silahını işə salaraq dünya miqyasında müharibəyə səbəb olur. Bir anın içində baş verən bu fiziki təmas zamanın gələcək qatına ani keçid yaradır. Burada xronotop yalnız zaman və məkanın texniki əlaqəsi deyil, eyni zamanda insan taleyinin və etik seçimlərin məkanı olaraq formalaşır. Səhnə həm qəhrəmanın daxili faciəsini, həm də zamanın narrativ strukturda necə büküldüyünü nümayiş etdirir [23]. Bu səhnə Todorovun təsnifatında "qəribə" kateqoriyasına uyğun gəlir, çünki qəhrəmanın qabiliyyəti ilk baxışda fantastik görünsə də, filmin daxili məntiqində buna psevdo-elmi bir izah verilir, yaşananlar qəhrəmanın qəza sonrası yaranan beyin travmasının nəticəsi kimi təqdim olunur.

Stiven Kinqin romanı əsasında Stenli Kubrik tərəfindən ekranlaşdırılmış "Parıldayan" (The Shining/1980) filmində xronotop tamamilə fərqli formada işlənir. Burada məkan olaraq Overluk oteli sadəcə fiziki bir tikili, sadə bir məkan kimi deyil, keçmiş cinayətlərin və psixoloji travmaların izlərini daşıyan, zaman içində dəyişən və qəhrəmanın psixikasına təsir göstərən canlı bir varlıq kimi təqdim edilir. Filmdə otelin dəhlizləri, otaqları və böyük zalı zamanın axını ilə transformasiya olunur. Məkan daxilində zamanın vəhdəti yaranır və keçmişdə baş vermiş hadisələr təkrar-təkrar canlanır, zamanın xətti axını pozulur. Xronotop burada qorxu və vahimə yaradan bir mexanizm kimi qarşı-

mıza çıxır, tamaşaçının və kino qəhrəmanının reallıq duyğusunu manipulyasiya edir [27].

"O" (It/2017) filmində xronotop hadisələrin qəhrəmanların uşaqlıq və yetkinlik dövrləri arasında gedib-gəlmələri vasitəsilə formalaşır. Film 27 illik dövrlərlə şəhərə qayıdan və uşaqları hədəf alan Pennivays adlı şər varlığa qarşı mübarizə aparan bir qrup dostun hekayəsini bizə anladır. Xronotop burada uşaqlıq qorxularının yetkinlik dövründə yenidən necə ortaya çıxdığını təsvir etmək, keçmiş travmaların gələcək zaman dövründə təzahürünü göstərmək üçün istifadə olunur [26]. Filmin ikinci hissəsində ("O: İkinci hissə", It: Chapter Two/2019) zamanın daha da mürəkkəb manipulyasiyaları göstərilir. Belə ki, yetkin film qəhrəmanları uşaqlıq xatirələrinə qayıdır, unudulmuş hadisələri yenidən yaşayır və şər – Pennivaysın mənşəyini, hardan gəldiyini və necə mövcud olduğunu anlamağa çalışırlar.

## 3. Herbert Uellsin ekran xronotopu: fantastik məkan və zamanların vizual təsviri

Herbert Corc Uells XIX əsrin sonu və XX əsrin əvvəllərində yaşamış, elmi fantastika janrının əsas təməlini qoymuş görkəmli ingilis yazıçısıdır. O, "Zaman maşını", "Dünyaların müharibəsi", "Görünməz adam" və "Doktor Moronun adası" kimi əsərləri ilə həm dövrünün texnoloji dəyişikliklərinə bədii münasibət bildirmiş, həm də cəmiyyətin gələcəyinə dair dərin fəlsəfi suallar ortaya qoymuşdur. Uellsin əsərlərində zaman və məkan anlayışı sadəcə arxa fon kimi yox, hadisələrin dinamikasını müəyyən edən fəal ünsürlər kimi çıxış edir. Onun yaradıcılığı yalnız fantastika ilə məhdudlaşmır, eyni zamanda sosial tənqid, etik prinsiplər və insan təbiətinə dair suallarla da zəngindir. Onun əsərləri əsasında çəkilmiş filmlərdə xronotop elmi fantastika janrının əsas elementlərindən biri kimi çıxış edir.

"Zaman maşını" əsəri əsasında yaranan ekran işləri (The Time Machine/1960 və 2002-ci il versiyaları) xronotopun ən aydın şəkildə manipulyasiya edildiyi nümunələrdir. Hər iki film adaptasiyasında xronotop, zamanın xətti bir axın deyil, səyahət edilə bilən bir ölçü olduğu fikrini təcəssüm etdirir. Rejissor Corc Pal tərəfindən ekranlaşdırılan 1960-cı il filmində zaman səyahəti vizual olaraq zamanın sürətlənməsi ilə göstərilir. Qəhrəmanın ətrafında fəsillər və günlər bir-birini sürətlə əvəz edir, moda və arxitektura dəyişir, müharibələr başlayır və sona çatır [32]. Əsərin Simon Uells tərəfindən ekranlaşdırılan 2002-ci il versiyasında isə zaman səyahəti daha mürəkkəb vizual effektlərlə göstərilir, xüsusilə Ayın parçalanması və şəhərin transformasiyası səhnələrində zaman-məkan münasibətlərinin dramatik dəyişikliyi nümayiş etdirilir. İlk əvvəldə qeyd etdiyimiz zaman və məkanın vizual effektlərə təsiri bu filmlərdə daha çox diqqəti cəlb edir [33].

Herbert Uellsin "Görünməz adam" əsəri əsasında çəkilmiş filmlərdə (The Invisible Man/1933, 2020 və s.) xronotop görünməzlik konsepti vasitəsilə formalaşır. Bu filmlərdə məkan anlayışı dəyişir. Görünməyən zamanda adi gözlə görünməyən qəhrəmanın mümkün məkanda hərəkəti tamaşaçı və digər personajlar üçün fərqli şəkildə qavranılır. Xüsusilə, Liy Vanelin 2020-ci il adaptasiyasında o və komandası kamera işi və montaj nəticəsində görünməz olan antaqonistin məkanda necə mövcud olduğunu göstərmək üçün innovativ üsullardan istifadə edirlər. Boş otaqların geniş planları, səssiz koridorlar və kamera bucağının gözlənilməz dəyişiklikləri tamaşaçıda təhlükənin hər yerdə olduğu hissini yaradır. Məkan perspektivinin davamlı dəyişimi və bu dəyişimlə görünməyənin görünən edilməsi əsas filmin çəkiliş üsulu kimi görünür [25].

Uellsin "Dünyaların müharibəsi" əsəri əsasında çəkilmiş filmlərdə (The War of the Worlds/1953, 2005) xronotop yer kürəsinin yadplanetlilər tərəfindən işğalı kontekstində formalaşır. Əsərdə *"...Gecələri marslıların insanlar tərəfindən əhatəyə alındığı deyilir..."* [18, s. 45]. Film və əsərdə məkan anlayışı "bizim" və "onların", yəni insanlar-

la yadplanetlilər arasındakı toqquşma kimi təqdim edilir. Bizə məlum yerlərin hamısı düşmən texnologiyası ilə transformasiya olunaraq onların özlərinə uyğunlaşdırılır. Stiven Spilberqin 2005-ci il adaptasiyasında xronotop Nyu Cersey ətrafındakı məkanların tanınmaz hala gəlməsi, qırmızı bitkilərin yayılması və insan sivilizasiyasının dağılması kimi təsvirlər əsasında formalaşır. Film bir varlığa aid məkanın başqa varlıq tərəfindən işğal edilməsi vasitəsilə sadəcə məkanın deyil, zamanın da dəyişdiyini, sivilizasiyanın bir gecədə necə çökdüyünü, insanlığın tarixinin yeni bir eraya girdiyini göstərir [24].

**4. Pyer Bullun ekran işlərində xronotop və sivilizasiya böhranı**

Pyer Bull (1912-1994) XX əsrin ən önəmli fransız yazıçılarından biridir. İkinci Dünya Müharibəsi zamanı döyüşçü kimi iştirak etmiş yazıçının əsirlik həyatı onun yaradıcılığına dərin təsir göstərmişdir. Bullun ən məşhur romanlarından olan “Meymunlar Planeti” və “Kvay çayı üzərindəki körpü” əsərləri həm ədəbi, həm də kino sahəsində böyük əhəmiyyətə malikdir. Xüsusilə, “Meymunlar Planeti” əsərinin müxtəlif ekran adaptasiyaları insan və sivilizasiya münasibətlərini, həmçinin zaman və məkan anlayışlarının mürəkkəbliyini ustalıqla tamaşaçıya çatdırır. Pyer Bullun yaradıcılığı insan təbiətinin dərin psixoloji qatlarını və tarixi proseslərin insan həyatına təsirini analiz edən zəngin nümunələr təqdim edir.

“Meymunlar planeti” (1968) filmində xronotop zamanın dairəvi strukturu fikri əsasında qurulur. Filmin məşhur final səhnəsində qəhrəman Taylor (Charlton Heston) yarı batmış “Azadlıq” heykəlini görərək əslində gələcəkdəki Yer planetində olduğunu anlayır. Əsərlə ziddiyyət təşkil edən bu sonluq nadir kino nümunələrindəndir. Belə ki, dünyada ekran işlərini sevən insanların birləşdiyi, filmlərinin xüsusi reytinqlə qiymətləndirildiyi ən böyük platformalardan biri olan “İMDB” (Internet Movie Database) platformasının istifadəçilərindən kitabı oxuyanların bir çoxu istər kino, istərsə də kitab sonluğunun çox maraqlı olduğunu, hər ikisində zaman anlayışının necə ustalıqla istifadə edildiyini qeyd edirlər. Əsərin sonluğu belədir: *“Mən üzərində çoxlu parlaq zolaqlar görürəm. Yerə tullanır. Bizə doğru bir neçə addım atır... Nova qışqırır, oğlanı əlimdən tutub qaçır və kapsulun içinə girir, mən isə yerimdə donub qalmışam, nə tərpənə bilirəm, nə də bir söz deyə bilirəm. Qarşımızda bir qorilla var”* [4, s. 265]. Əsərdən fərqli olaraq 1968-ci ildə ekranlaşdırılan işin sonluğundakı bu xronotop strukturu zamanın xətti deyil, dairəvi olduğunu, insanlığın öz məhvini hazırladığını və tarixdən dərs almadığını göstərir [28]. *2001-ci ildə Tim Burton tərəfindən çəkilmiş remeyk versiyada və daha sonrakı yenidən başlayan seriyalarında (“Meymunların Yüksəlişi”, “Meymunların Şəfəqi” və s.) bu xronotop daha da inkişaf etdirilərək insan və meymun sivilizasiyaları arasındakı münasibətlər müxtəlif zaman müstəvilərində araşdırılır* [29].

“Kvay çayı üzərindəki körpü” (1957) filmi Devid Lin tərəfindən Pyer Bullun romanı əsasında ekranlaşdırılmışdır. Filmdə xronotop, müharibə əsiri düşən şəxslərin xüsusi düşərgələrində zaman və məkan anlayışlarının transformasiyası vasitəsilə formalaşır. Filmdə britaniyalı əsirlərin yapon komandanlığı üçün körpü tikməsi prosesi, zamanın ağır axını və məkanın məhdudiyyəti kontekstində təsvir edilir. Xronotop burada müharibə zamanı insanların dəyərlərinin və prioritetlərinin dəyişməsini göstərmək üçün istifadə olunur. Filmin əvvəlində körpü tikintisi əsirlərin vaxtını öldürmək və ləyaqətlərini qorumaq üçün bir vasitə olsa da, tədricən bu layihə daha dərin bir mənaya çevrilir. Bu, Britaniya əsirlərinin peşəkarlığı və şərəf anlayışı ilə yapon komandirinin qüruru arasındakı toqquşmanın simvolu olmuşdur [30].

Stiven Kinq, Herbert Uells və Pyer Bull əsərləri əsasında çəkilmiş filmlərdə maraqlı bir tendensiya müşahidə olunur: ədəbi əsərlərdəki xronotop strukturu film adaptasiyasında dəyişikliklərə məruz qalır. Ədəbi əsərlərdə xronotop sözlər və təsvirlərlə yaradılırsa, filmlərdə bu, vizual dil, kamera işi, montaj, səs dizaynı və aktyorluq vasitəsilə

təcəssüm olunur. Məsələn, Stiven Kinqin "Parıldayan" romanında xronotop, əsasən, qəhrəmanın daxili monoloqları vasitəsilə yaradılırsa, Kubrikin film adaptasiyasında bu, kamera hərəkətləri (xüsusilə "steadicam" ilə çəkilmiş uzun planlar) və vizual metaforalar (qan selinin lift qapılarından axması, mürəkkəb labirint və s.) vasitəsilə göstərilir. Yazıçının "Sis" əsəri 2007-ci ildə film, 2017-ci ildə isə serial şəklində ekranlaşdırıldı. 2017-ci il variantı çox bəyənilmədi. Səbəblərdən biri əsərdəki xronotopun qrafikalar vasitəsilə ekrana zəif əks etdirilməsi idi. Əsərdə xronotopu baş qəhrəman Devid Draytonun fərd psixologiyasının dərin sarsıntısı ilə təsvir etdikləri sayəsində öyrənirik: *"Bir söz. Əgər həqiqətən bu sözü eşitdimsə. Əgər... əgər... Mən indi yatmağa gedirəm. Amma əvvəlcə oğlumu öpüb qulağına iki kəlmə pıçıldayacağam. Billini görə biləcəyi kabuslardan qorunmaq üçün. Bu iki söz bir az oxşar görünür. Bir söz "Hartford"dur. Digəri isə "ümid"dir."* [10, s. 146]. 2007-ci il film versiyasında bu xronotop xüsusi toplu kütlə-cəmiyyət psixologiyasının təzahürü ilə daha da qatılaşan duman, keçmişə doğru uzanan zaman oynamaları ilə qarşımıza çıxır. Xüsusilə, əsərdə son epizodlarda nələrin baş verəcəyi oxucuya ötürüldüyündən zaman və məkan öz axtarış missiyaları ilə sonsuzluğuna davam edir, biz film versiyasının sonunda artıq daha az cavabsız sual, daha çox mənəvi əzab, valideyn-övlad münasibəti, yaxşılıq və pisliyin təzahürü – karma, cəmiyyət psixologiyasının məhvi kimi hadisələrlə qarşılaşır, zaman və məkanın necə əyildiyini daha aydın başa düşə bilirik.

Film adaptasiyalarında xronotop çəkildiyi dövrün texnologiyası, siyasi mühiti və mədəni konteksti ilə sıx əlaqəlidir. Müxtəlif rejissorların eyni ədəbi əsərə fərqli yanaşmaları nəticəsində xronotopun strukturunda dəyişikliklər ortaya çıxır. Məsələn, Herbert Uellsin "Dünyaların müharibəsi" romanının Bayron Haskin tərəfindən təqdim edilən 1953-cü il adaptasiyası Soyuq Müharibə dövründə çəkilmiş, nəticədə xronotop kommunizmə qarşı qorxu və narahatlığı əks etdirən tərzdə formalaşdırılmışdır. Stiven Spilberqin 2005-ci il təqdimatı isə 11 Sentyabr hücumlarından sonra çəkilmiş, nəticədə burada xronotop insanların müasir terror qorxusunu, ailə dəyərlərini və inanclarını əks etdirən şəkildə qurulmuşdur. Fikrimizcə, Yer planetində qırmızı bitkilərin inkişafını göstərərkən rejissorun istifadə etdiyi maraqlı üslub da məhz bu səbəbdən təsadüfi deyildi. "Meymunlar planeti" filminin 1968-ci il versiyasında xronotop Soyuq Müharibə dövründə nüvə fəlakəti qorxusunu əks etdirirdisə, 2011-ci ildən başlayan yeni seriyalarda ("Meymunların yüksəlişi") xronotop gen mühəndisliyi, heyvanlar üzərində aparılan sınaqların nəticəsi və süni pandemiyalar kimi müasir dövr qorxularını əks etdirir.

Herbert Uells əsərlərində və onların ekran işlərində zaman, əsasən, elmi bir fenomen kimi təsvir edilir. "Zaman maşını" filmində olduğu kimi zaman, texnoloji vasitələrlə manipulyasiya edilə bilən fiziki bir ölçüdür. Stiven Kinq əsərlərinin ekran işlərində isə zaman daha çox psixoloji və metafizik aspektdən işlənir. "Ölü zona" filmində olduğu kimi, zaman şüurda qırıla bilən, şüuraltında gələcəyə açılan bir pəncərə kimi təsvir olunur. Pyer Bull əsərlərində və filmlərində isə zaman daha çox sosioloji və tarixi kontekstdə işlənir. Belə ki, "Meymunlar planeti" filmində olduğu kimi zaman sivilizasiyaların özünü məhvini, yüksəlişi və tənəzzülünün dairəvi strukturunu göstərən bir vasitədir.

Məkan anlayışı da üç müəllifin ekran adaptasiyalarında fərqli şəkildə təqdim edilir. Herbert Uells adaptasiyalarında məkan, elmi araşdırmada bir kəşfiyyat obyekti kimi qarşımıza çıxır. Məsələn, naməlum planetlər, gələcəyin Yer kürəsi və s. Kinq adaptasiyalarında məkan əsasən psixoloji gərginliyi artırmaq üçün istifadə olunur: təcrid olunmuş otellər, kiçik şəhərlər, qapalı məkanlar, marketlər və s. Bull adaptasiyalarında isə məkan sivilizasiyaların toqquşması üçün bir səhnədir. Belə ki, müharibələrin getdiyi geniş ərazilər, müharibə əsirləri düşərgəsi, meymunlar tərəfindən idarə olunan bir vaxt insanların olan Yer planeti və s.

Stiven Kinq, Herbert Uells və Pyer Bull əsərləri əsasında son illərdə çəkilmiş

adaptasiyalarda xronotopun işlənməsi rəqəmsal texnologiyaların inkişafı və müasir kinematoqrafik dilə uyğun olaraq evolyusiya etmişdir. Müasir film adaptasiyalarında kompüter generasiyalı təsvirlər (CGI) xronotopun daha mürəkkəb formalarını yaratmağa imkan verir. Məsələn, "O" filminin 2017-ci il adaptasiyasında Pennivays obrazının transformasiyaları, qorxu səhnələrinin sürreal xarakteri və keçmiş-indiki zaman keçidləri CGI vasitəsilə daha təsirli şəkildə göstərilir. Eyni şəkildə, "Meymunların yüksəlişi" trilogiyasında CGI meymunların təkamülünü və sivilizasiyanın tədricən dəyişməsini təsvir etmək üçün geniş istifadə olunur [31].

Son illərdə çəkilmiş adaptasiyalarda nostalji elementi xronotopun əsas hissəsinə çevrilmişdir. "O" (2017) filmində 1980-ci illərin Derry şəhəri qəhrəmanların uşaqlıq nostalgiyası ilə onlarda yaranmış qorxu elementlərinin qarışığı kimi təqdim edilir. "Zaman maşını" (2002) filmində Viktoriya dövrü müəyyən nostaljik elementlərlə göstərilir. Bu tendensiya tamaşaçıların nostaljik hisslərindən və keçmişə olan marağından istifadə edərək xronotopun emosional təsir gücünü artırmaq məqsədi daşıyır.

**Nəticə**

Stiven Kinq, Herbert Uells və Pyer Bullun əsərləri əsasında çəkilmiş filmlərin xronotop strukturlarının təhlili fantastik kinoda zaman və məkan anlayışlarının nə qədər mürəkkəb və çoxşaxəli şəkildə işləndiyini aydın göstərir. Hər üç müəllifin ekran adaptasiyalarında xronotop, janrın spesifik tələblərinə və müəllifin fərdi üslubuna uyğun olaraq formalaşır.

Stiven Kinq adaptasiyalarında xronotop əsasən psixoloji qorxu və gərginlik yaratmaq məqsədi daşıyır; zaman və məkan qəhrəmanların daxili qorxularını və travmalarını əks etdirən güzgü funksiyasını yerinə yetirir. Herbert Uells adaptasiyalarında isə xronotop elmi-fantastik konsepsiyaların vizual təcəssümü üçün bir vasitədir. Məsələn, zaman səyahəti, paralel dünyalar və yadplanetli işğalı kimi ideyalar zaman və məkanın manipulyasiyası vasitəsilə konkretləşdirilir. Pyer Bull adaptasiyalarında isə xronotop sosial və siyasi alleqoriyaların qurulması üçün bir alətə çevrilir; burada fərqli zaman və məkan strukturları vasitəsilə cəmiyyətin tənqidi təqdim edilir.

Bu üç müəllifin əsərləri əsasında çəkilmiş filmlərin müqayisəli təhlili fantastik kinoda xronotopun nə qədər zəngin və çoxölçülü bir konsept olduğunu sübut edir. Təhlil göstərir ki, hər bir rejissor bu konseptə yaşadığı dövrün ictimai-siyasi vəziyyətinə, zaman və məkan qavrayışına uyğun olaraq fərqli yanaşma tətbiq etmişdir. Fantastik filmdə xronotop sadəcə hekayənin cərəyan etdiyi zaman və məkanı təyin etmək üçün deyil, həm də filmin fəlsəfi və estetik arxitekturasını formalaşdırmaq, tamaşaçını emosional və intellektual səviyyədə cəlb etmək üçün istifadə olunan əsas bədii vasitələrdən biridir.

## ƏDƏBİYYAT

***Türk dilində:***

1. Bahtin M.M. Karnavaldan Romana. İstanbul: Ayrıntı Yayınları, 2001, 398 s.
2. Erişan B.E. Nuri Bilge Ceylan Filmlerinin Bahtın'in Kronotop Kavramı ile İncelenmesi. Ankara: Ankara Universitesi, 2015, 93 s.
3. Todorov T. Fantastik: Edebi Tür Üzerine Yapısal Bir Yaklaşım. İstanbul: Metis Yayınları, 2004, 178 s.
4. Boulle P. Maymunlar Gezegeni. İstanbul: İthaki, 2017, 269 s.
5. King S. Doktor Uyku. İstanbul: Altın Kitaplar, 2013, 544 s.
6. King S. O. İstanbul: Altın Kitaplar, 2020, 1256 s.
7. King S. Hayvan Mezarlığı. İstanbul: Altın kitaplar, 2019, 373 s.
8. King S. Diriliş. İstanbul: Altın Kitaplar, 2015, 392 s.

9. King S. Kara Kule: Silahşör. İstanbul: Altın Kitaplar, 2017, 224 s.
10. King S. Sis. İstanbul: Altın Kitaplar, 2018, 640 s.
11. King S. Medyum. İstanbul: Altın Kitaplar, 2021, 440 s.
12. King S. Kubbenin Altında. İstanbul: Altın Kitaplar, 2011, 1024 s.
13. King S. 11/22/63. İstanbul: Altın Kitaplar, 2021, 816 s.
14. Wells H.G. Aydaki Ilk Insanlar. İstanbul: İthaki, 2020, 232 s.
15. Wells H.G. Görünmez Adam. İstanbul: İthaki, 2019, 232 s
16. Wells H.G. Doctor Moreau Adası. İstanbul: İthaki, 2018, 197 s.
17. Wells H.G. Zaman Makinesi. İstanbul: İthaki, 2020, 144 s.
18. Wells H. G. Dünyalar Savaşı. İstanbul: İthaki, 2024, 256 s.

***İngilis dilində:***

19. Jameson, F. Archaeologies of the Future: The Desire Called Utopia and Other Science Fictions. London: Verso, 2005, 431 s.

***Fransız Dilində:***

20. Boulle, P. E = mc². Paris: René Julliard, 1957, 96 s.
21. Boulle, P. Le Jardin de Kanashima. Paris: René Julliard, 1964, 320 s.
22. Deleuze, G. Cinéma 1: L'image-mouvement. Paris: Minuit, 1983, 296 s.

***Elektron resurslar***

23. "Dad Zone" filmi. (https://www.hdfilmcehennemi.nl/the-dead-zone/)
24. "Dünyalar savaşı" filmi. (https://www.hdfilmcehennemi.nl/dunyalar-savasi-izle-hdf-4/)
25. "Görünmez adam" filmi. (https://www.hdfilmcehennemi.nl/gorunmez-adam-2020-film-izle-hdf-5/)
26. "İt" filmi. (https://www.hdfilmcehennemi.nl/hd-it-hd-film-izle-hdf-hdf-5/)
27. "Parıldayan" filmi. (https://www.hdfilmcehennemi.nl/the-shining-izle-hdf-6/)
28. "Planet of the Apes" 1968-ci il filmi. (https://www.hdfilmcehennemi.nl/planet-of-the-apes-hdfc/)
29. "Planet of the Apes" 2001-ci il filmi. (https://www.hdfilmcehennemi.nl/planet-of-the-apes/)
30. "The Bridge on the River Kwai" 1957-ci il filmi. (https://www.hdfilmcehennemi.nl/the-bridge-on-the-river-kwai/)
31. "The Planet Of The Apes" filmində CGI texnologiyas-Aping Reality: The CGI Secrets Of Rise Of The Planet Of The Apes. (https://www. youtube. com/ watch? v=4 CgV fVhgXyQ)
32. "Time Machine" 1960-cı il filmi. (https://www.hdfilmcehennemi.nl/the-time-machine-hdfc/)
33. "Time Machine" 2002-ci il filmi. (https://www.hdfilmcehennemi.nl/the-time-machine/)

***Резюме***

***Айдан Нагиева***

***Кинематографические решения фантастических литературных хронотопов***

В жанре фантастического кино хронотоп-взаимосвязь времени и пространства-выступает не просто как описательная структура, но как центральный художественно-композиционный элемент. Эти фильмы выходят за пределы границы между реальностью и воображением, предоставляя зрителю погружение в альтернативные миры через трансформированные временные и пространственные отношения. Манипуляции со временем и пространством служат не только для построения иных вселенных, но и ставят под сомнение основы человеческого восприятия и памяти.

Экранизации произведений Стивена Кинга, такие как "Сияние", "Оно" и "Мёртвая зона", наглядно демонстрируют, как хронотоп может отражать внутренние психологические состояния. Нарушенные временные линии, слияние прошлого и будущего в настоящем, а также метаморфозы

пространства, сообразно страхам и травмам персонажей, создают образ времени и пространства как подвижных, эмоционально насыщенных субстанций. Хронотоп превращается в проход в подсознание, раскрывая скрытые тревоги и неразрешённые внутренние конфликты, как индивидуальные, так и коллективные.

В фильмах по произведениям Герберта Уэллса-"Машина времени", "Война миров", "Человек-невидимка"-хронотоп становится философским инструментом для осмысления научного прогресса и человеческой эволюции. Здесь путешествия во времени, технологические дистопии и альтернативные реальности служат визуальными метафорами этических и экзистенциальных вопросов. Взгляд Уэллса на пространство и время часто пересекается с темами власти, разрушения и границ человеческого знания.

"Планета обезьян" Пьера Буля представляет собой дистопический хронотоп, где циклическое время, инопланетные пейзажи и крах человеческой цивилизации служат критикой технологического высокомерия и культурной деградации. В этой интерпретации будущее с иронией отражает настоящее, обнажая его противоречия. Таким образом, хронотоп в фантастическом кино – это не просто фон, но активный медиум, в котором сливаются эстетические, психологические и идеологические слои художественного высказывания.

**Ключевые слова:** *фэнтези-литература, фантастические фильмы, хронотоп, Стивен Кинг, Герберт Уэллс, Пьер Булль*

***Summary***

***Aydan Naghiyeva***

***Cinematographic Solutions of Fantastic Literary Chronotopes***

In the genre of fantastic films, the chronotope-the interconnection of time and space-functions not merely as a descriptive framework but as a central artistic and structural device. These films transcend the boundary between reality and imagination, offering viewers immersive experiences through altered temporalities and spatial dynamics. The manipulation of time and space serves not only to construct alternative worlds but also to question the foundations of human perception and memory.

Adaptations of Stephen King's works, including "The Shining", "It", and "The Dead Zone", exemplify how the chronotope can express inner psychological states. Through disrupted timelines, the merging of past and future within the present, and the transformation of space based on characters' fears and traumas, these films present time and space as fluid, emotionally charged dimensions. The chronotope becomes a gateway into the subconscious, revealing hidden anxieties and unresolved trauma embedded in both the individual and collective psyche.

H.G. Wells' adaptations, such as "The Time Machine", "The War of the Worlds", and "The Invisible Man", employ the chronotope to examine the implications of scientific progress and human evolution. Here, time travel, technological dystopias, and alternate realities become visual and philosophical tools for exploring ethical and existential dilemmas. Wells's vision of time and space often intersects with themes of power, decay, and the limits of human knowledge.

Pierre Boulle's "Planet of the Apes" offers a dystopian chronotope where cyclical time, alien landscapes, and the collapse of human civilization critique the consequences of technological hubris and cultural decay. In Boulle's vision, the future reflects back on the present with ironic detachment. Ultimately, the chronotope in fantastic cinema is more than a backdrop; it is a dynamic medium that embodies aesthetic, psychological, and ideological complexities.

**Key words:** Fantasy literature, fantasy films, chronotope, Stephen King, H.G. Wells, Pierre Bull

Redaksiya heyətinin üzvü fil.e.d., dos. Məmmədova-Kekeç Elmira Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.